UOT 338.336

*magistrant Nübar Ənvər qızı HÜSEYNOVA*
*nubar.gulcin92@mail.ru*
*Azərbaycan Kooperasiya Universiteti*

*Elmi rəhbər: i.f.d., dos. Elnurə Bünyat qızı MƏMMƏDOVA,*
*mammadova-e@list.ru*

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN BANKLARINDA HƏYATA KEÇİRİLƏN ƏMƏLİYYATLARIN TƏSNİFATI

*Xülasə*

**Tədqiqatın məqsədi** – Müasir bankçılığı araşdırmaq, banklarda həyata keçirilən əməliyyatları, onların ölkə iqtisadiyyatındakı rolunu müəyyən etməkdir.

**Tədqiqatın metodologiyası** – araşdırılan mövzuya sistemli və kompleks yanaşma,bank əməliyyatlarının müxtəlif cəhətlərdən təhlili, təsnifləşdirilməsi üsulları tədqiq edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – əldə edilmiş nəticələrdən bank əməliyyatları ilə bağlı problemlərin həllində istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – Müasir iqtisadi inkişafda banklarda həyata keçirilən əməliyyatların təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanmasından ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalədə bəhs etdiyim mövzu üzrə müasir iqtisadi inkişafın tələblərinə uyğun fikirlər formalaşdırılmışdır. Banklarda aparılan əməliyyatlar, onların xarakteristikası, növləri, iqtisadiyyatda oynadıqları rol, müxtəlif kommersiya banklarında hal-hazırda həyata keçirilən əməliyyatlar, xidmətlər məqalədə öz əksini tapıb.

***Açar sözlər: banklar, bank əməliyyatları, aktiv və passiv əməliyyatlar.***

## *Giriş*

Bazar iqtisadiyyatında banklar iqtisadiyyatın çevik inkişafa malik olan sferasıdır. Böyük məbləğdə kapitalı olan, yüksək maliyyə potensialı olan, həmçinin öz fəaliyyətinə məsuliyyətlə yanaşan banklar olmasa ölkədə iqtisadiyyat irəliləyə bilməz. Çünki banklar müxtəlif əməliyyatlar həyata keçirməklə dövlətin maliyyə sisteminə, büdcəsinə vəsait yerləşdirilməsində, pul dövriyyəsində iştirak edirlər.

**Banklarda yerinə yetirilən əməliyyatlar və onların növləri**

Müasir banklar fiziki və hüquqi şəxslərə, yəni müştərilərinə müxtəlif maliyyə xidmətləri göstərən qurumlardır. Kommersiya bankları maliyyə sisteminin, xüsusilə də bank sektorunun əsas komponenti kimi çıxış edir. Bu banklar iqtisadiyyatın müstəqil strukturlarıdır. Onların müştərilərlə əlaqəsi kommersiya məqsədlidir. Kommersiya bankları maksimum mənfəət qazanmaq məqsədilə fəaliyyət göstərirlər. Bütün ölkələrdə kommersiya bankları aid olduğu ölkənin bank qanunvericiliyi uyğun olaraq işləyir və qanunvericiliyin imkan verdiyi əməliyyatları həyata keçirirlər. Xeyli əməliyyatlar mövcuddur ki, demək olar ki, kommersiya banklarının hamısı həmin əməliyyatları yerinə yetirirlər. Yerləşdiyi ölkədən asılı olmayaraq bankların və digər kredit idarələrinin həyata keçirdiyi əməliyyatlar ümumi səciyyə daşıyır. Banklar aşağıdakı əməliyyatları həyata keçirirlər:

- əmanətlərin banka cəlb edilməsi;
- fiziki və hüquqi şəxslərə razılaşma ilə kreditlərin verilməsi;
- müştərilərin hesablarının açılması;
- müxbir bank hesablarının açılması;
- nağd və nağdsız hesablaşmaların aparılması;
- müştərilərə kassa xidmətlərinin göstərilməsi;
- investisiya layihələrinin reallaşdırılması, kapital qoyuluşları ilə əlaqədar əməliyyatlar;

- müxtəlif qiymətli kağızların (çeklərin, veksellərin, səhmlərin, istiqrazların, akkreditivlərin) tədavülə buraxılması;
- ödəmə sənədlərinin, qiymətli kağızların ticarəti, alınması, satışının həyata keçirilməsi, saxlanması, qiymətli kağızlarla bağlı digər əməliyyatlar;
- xarici valyutayla bağlı əməliyyatlar;
- dəyərli metalların, təbii daşların, habelə bu məhsullardan hazırlanmış əşyaların qəbulu, saxlanması, alqı-satqısı;
- fiziki və hüquqi şəxslərin tapşırığına uyğun olaraq vəsaitlərin cəlb edilməsi, pul vəsaitlərinin və qiymətli kağızların idarə edilməsinə əsaslanan trast əməliyyatlarının həyata keçirilməsi;
- lizinq əməliyyatları;
- faktorinq əməliyyatları;
- forfeytinq əməliyyatları;
- müştərilərə bank fəaliyyəti ilə əlaqədar məsləhətlərin verilməsi və s.

Bütün bu əməliyyatlar banklar haqqında qanunvericiliyə əsasən həyata keçirilir. Bununla yanaşı kommersiya bankları və digər kredit təşkilatları ölkənin Mərkəzi Bankının tələbləri əsasında fəaliyyət göstərirlər. Banklar bir tərəfdən pul vəsaitlərini özlərinə cəlb edir, digər tərəfdən isə bu toplanan vəsaitlərlə müxtəlif təşkilatların, idarələrin, həmçinin də insanların pula olan ehtiyaclarını ödəyir.

Kredit resurslarının toplanması və yerləşdirilməsi üzrə əməliyyatların həyata keçirilməsinin iqtisadi bünövrəsini pul resurslarının təşkili, formalaşdırılması qoyur. Bu prosesi həyata keçirərkən kommersiya bankı toplanmış kredit vəsaitlərinin məqsədəuyğun, əlverişli şəkildə yerləşdirilməsini reallaşdırır.

Son dövrlərdə ölkəmizdə mövcud olduğu kimi ümumdünya bank sahəsində də iki ənənə mövcuddur:

1. Bankların universallaşdırılması;
2. Bankların ixtisaslaşdırılması.

Müxtəlif əməliyyatlarla fəaliyyət göstərən kommersiya bankları əhatəli, qarışıq çalışma sahələrinə daxil olur. Bankların növləri ilk öncə onların apardığı əməliyyatların növündən, həmçinin də, dövlətin iqtisadi vəziyyətindən, pul resurslarının, maliyyə bazarlarının irəliləyiş tempindən, kredit münasibətlərinin inkişafından asılıdır. Kommersiya bankları universal, xüsusi əməliyyatlar üzrə ixtisaslaşdırılmış, sahəvi, regional banklar kimi təsnifləşdirilir.

Bundan başqa Mərkəzi Bankın qanunvericiliyinə müvafiq olaraq kommersiya bankları yuxarıda qeyd edilmiş bank əməliyyatları ilə yanaşı aşağıdakı əməliyyatları da həyata keçirmək hüququna malikdir:

- üçüncü şəxslərin əvəzinə öhdəliklərin pul formasında həyata keçirilməsini nəzərdə tutan zəmanətin verilməsi;
- üçüncü şəxslərdən öhdəliklərin pul formasında həyata keçirilməsini tələb etmək hüququnun əldə edilməsi;
- məsləhət və informasiya xidmətlərinin göstərilməsi.
- fiziki və hüquqi şəxslərə sənəd və qiymətli vəsaitlərin saxlanması üçün seyflərin icarəyə verilməsi;
- lizinq əməliyyatları [1, s. 33].

Ölkəmizdə bütün bank əməliyyatları milli valyutamız olan manatla həyata keçirilir. Mərkəzi Bankdan alınmış xüsusi razılıq əsasında isə əməliyyatlar xarici valyutada aparıla bilər. Kommersiya bankları, həmçinin digər kredit təşkilatları sığorta, istehsal və ticarətlə məşğul ola bilməzlər. Bu kimi fəaliyyət növləri, əsasən, qeyri-bank əməliyyatlarına daxildir.

İqtisadi ədəbiyyatlarda bank əməliyyatları və bank xidmətləri anlayışları bir-birindən ayrılmır, onların arasında elə də böyük fərq qoyulmur. “Müştəri-bank” münasibətlərinin, müştərinin mövcud olması bankda həyata keçirilən əməliyyatları bank xidmətləri ilə eyniləşdirir. Yəni, bank xidməti öz müştərilərinin ehtiyaclarının təmin edilməsini reallaşdıran bank əməliyyatlarından

təşkil olunub. Kommersiya banklarının göstərdiyi xidmətlər ödəniş qarşılığında müştərinin xeyrinə, onun təlimatı ilə bank əməliyyatlarının həyata keçirilməsi prosesidir.

Bank xidmətinin əsas xüsusiyyətlərinə aşağıdakılar aiddir:

1. Xidmətlərin qeyri-maddi mahiyyəti;
2. Banklarda idarə edilən pul vəsaiti ehtiyatları yaradılır;
3. Bank əməliyyatları və xidmətlərinin keçirilməsi qanunvericiliklə tənzimlənir;
4. Yeni bank xidmətində müştəri müstəsna hüquqlara sahib deyil;
5. Eyni bir bankın bütün filialları eyni bank əməliyyatları və xidmətlərini yerinə yetirir [1, s. 34].

Ölkəmizdə banklarla müştərilər arasında əlaqələr qanunvericiliyə uyğun şəkildə bank müqaviləsi ilə tənzimlənir. Bank müqaviləsi tərəflərin əməkdaşlığının tələblərini müəyyən edir. Bağlanmış müqaviləyə istinadən bankla müştərinin razılaşması qarşılıqlı inam əsasında təsis edilir. Bank qanuni şəkildə müştərilərə bank xidmətləri göstərir, tapşırıqları icra etməyi öz üzərinə götürür və müştəriləri bankın yüksək peşəkarlığına inandırmağa çalışır. Müqavilədə bank məhsullarının faiz dərəcəsi, göstərilən bank xidmətlərinə görə ödəniləcək haqq, əməliyyatların yerinə yetirlmə vaxtı, müqavilə tələblərinə riayət edilməməsi vəziyyətində tərəflərin əmlak üzərində sahiblik öhdəliyi, müqaviləyə xitam verilmə qaydası və s. öz əksini tapır.

**Müasir bank əməliyyatlarının təsnifləşdirilməsi**

Bazar iqtisadiyyatı şəraitində kommersiya bankının bütün əməliyyatlarını şərti olaraq üç əsas qrupa bölmək olar:

- passiv əməliyyatlar;
- aktiv əməliyyatlar;
- aktiv-passiv əməliyyatlar [ 1, s. 39].

1. Passiv əməliyyatlar – vəsaitlərin banka cəlb edilməsi, bankda ehtiyatların yaradılması üzrə əməliyyatlardir. Passiv əməliyyatların bank üçün əhəmiyyəti çox böyükdür [1, səh.39].

Bank passivlərinin yaradılması prosesi bankın fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Buna görə də bütün kommersiya bankları vəsaitlərini artırmağa çalışırlar. Bankın passiv əməliyyatlarına aiddir:

- müştərilərin hesablarına vəsaitlərin toplanması;
- fiziki şəxslərə və müəssisələrə müddətli hesab yaradılması;
- başqa banklardan cəlb olunmuş istiqrazlar;
- qiymətli kağızların emissiyası.

Vəsaitlərin banka cəlb edilməsi ilə əlaqədar olan passiv əməliyyatlara aşağıdakılar daxildir:

- Depozitlərin qəbulu;
- Emissiya prosesi, yəni qiymətli kağızların yerləşdirilməsi.

Müasir bank sektorunda depozitlərin tələb olunanadək, müddətli depozitlər, əmanət yatırımları, fiziki şəxslərin depozitləri, hüquqi şəxslərin depozitləri, qiymətli kağızlara yatırımlar kimi növləri var.

2. Aktiv əməliyyatlar. Banklar aktiv əməliyyatlar vasitəsilə sərəncamlarında olan vəsaitləri mənfəət əldə etmək məqsədi ilə yerləşdirir. Aktiv əməliyyatlara fiziki və hüquqi şəxslərin kreditləşdirilməsi, qiymətli kağızların əldə edilməsi, faktorinq, lizinq, trast əməliyyatlarını misal göstərmək olar.

Bankın aktiv əməliyyatları iqtisadi məzmununa görə aşağıdakılara bölünür:

- ssuda əməliyyatları;
- hesablaşma əməliyyatları;
- kassa əməliyyatları;
- investisiya və fond əməliyyatları;
- zəmanət əməliyyatları [ 1, s. 45].

Banklar tərəfindən kredit məhsullarının müxtəlif növlərinin irəli sürülməsi halları günü-gündən artır. Kredit verilərkən kreditin alınması qaydalarına aşağıdakılar əlavə olunur:

- kreditləşmə mexanizmi barədə ümumi anlayışı olmaq;
- müştəriyə kredit barədə informasiyanın verilməsi və müştəriyə daha sərfəli bankın, kredit növünün seçilməsi;
- kreditin alınması üçün tələb olunan sənədlərin yığılmasına və qanuni şəkildə rəsmiləşdirilməsinə yardım etmək;
- toplanmış sənədlərin bank tərəfindən qəbul edilməsi və kreditin əldə edilməsi üçün müvafiq ərizənin təmin edilməsi.

İnsanlar bankdan müxtəlif məqsədlərlə kredit alırlar. Əsasən istehlak kreditləri, biznes kreditləri, ipoteka kreditləri, avtomobil almaq üçün kredit və s. kredit növlərini misal çəkə bilərik. Kreditləşmə prosesi müştərinin kredit istəyi ilə bağlı banka müraciəti ilə başlayır və bağlanmış kredit müqaviləsinin icrasına nəzarətlə bitir. Bütün ssuda əməliyyatlarını bankla müştəri arasında bağlanmış müqavilə əsasında kommersiya bankları özləri yerinə yetirirlər. Kreditin rəsmiləşdirilməsi üçün banka müraciət edən şəxslər kredit müqaviləsindən əlavə müddətli öhdəlik, kredit məhsulunun verilməsi üçün öhdəlik, girov öhdəliyi və ya zəmanət öhdəliyi verirlər.

Bankların həyata keçirdiyi aktiv əməliyyatlardan biri də hesablaşma əməliyyatlarıdır. Hesablaşma əməliyyatları müştəri üçün müvafiq hesabın açılması, onların hesabına vəsaitlərin köçürülməsi və hesabdan vəsaitlərin silinməsi üzrə aparılan əməliyyatlardır. Hesablaşma əməliyyatları Mərkəzi Bank tərəfindən qəbul edilmiş qaydalar, qanunlar üzrə həyata keçirilir. Beynəlxalq hesablaşmalar isə beynəlxalq bank praktikasında təsdiq edilmiş qanunlara, standartlara müvafiq şəkildə aparılır.

Kassa əməliyyatları qiymətli metalların, nağd pul vəsaitlərinin alınması və təhvil verilməsi üzrə bank əməliyyatlarıdır. İnvestisiya əməliyyatları da öz növbəsində aktiv əməliyyatlardır və bankın aktivində yer alır. Çünki bu əməliyyatlar sayəsində bank gəlir əldə edir. İnvestisiya əməliyyatları bankın öz vəsaitlərini, eləcə də cəlb olunmuş vəsaitləri gəlir əldə etmək məqsədilə digər müəssisələrin səhmlərinə və digər qiymətli kağızlarına qoyması əməliyyatlarıdır. İnvestisiya əməliyyatı da kredit əməliyyatları kimi banka gəlir gətirir. Lakin bu əməliyyatları kredit əməliyyatlarından fərqləndirən cəhət odur ki, investisiya əməliyyatlarını bank özü keçirir, öz təşəbbüsü ilə reallaşdırır. Yəni bu əməliyyatı müştəri ilə yox, özü həyata keçirir.

Fond əməliyyatları bankların qiymətli kağızlarla apardığı aktiv əməliyyatlardır. Fond əməliyyatlarına hesablaşma əməliyyatları, veksellərin inkassasiyası, veksel tapşırıqlarının verilməsi və s. bu kimi veksellərlə reallaşdırılan əməliyyatlar və fond birjasında qiymətləndirilən qiymətli kağızlarla bağlı bank əməliyyatları daxildir.

Zəmanət əməliyyatları isə bank tərəfindən zəmanətin verilməsi əməliyyatlarıdır. Bank müştərinin üçüncü şəxsə olan borcunu geri qaytarması barədə zəmanət verir və bu əməliyyatlardan komissiya formasında gəlir qazanır.

Bu gün Azərbaycanın banklarında müştərilərə çoxlu sayda əməliyyatlar üzrə xidmət göstərilir. Məsələn, Kapital bankda kredit, depozit, pul köçürmələri, onlayn xidmətlər və digər xidmət növləri həyata keçirilir. Pul köçürmələri zamanı bankda "Xəzri", "Western Union" kimi pulköçürmə sistemlərindən istifadə olunur. Onlayn xidmətlərə isə kart sifarişi, kredit sifarişi, kredit ödənişi, kommunal ödənişlər və s. daxildir [2].

Paşa bank öz müştərilərinə hesablaşma-kassa xidmətləri, depozit, kredit, faktorinq, sənədli əməliyyatlar və digər xidmətləri göstərir [3].

Bank Respublikanın həyata keçirdiyi əməliyyatlara isə nağd pul krediti, fermer krediti, lombard krediti, ipoteka krediti, valyuta əsasında kredit, əmanət təminatı ilə kredit, avtomobil krediti, pul köçürmələri, əmanət, onlayn xidmətlər və s. daxildir [4].

***Nəticə***

Bununla da belə nəticəyə gəlmək olar ki, kommersiya bankları xidmətləri kompleks şəkildə həyata keçirir. Bu xüsusiyyət bankları digər kredit müəssisələrindən fərqləndirir. Xüsusi kredit müəssisələri əməliyyatlardan yalnız bir neçəsini yerinə yetirirlər. Bankların da üstün cəhəti məhz budur.

**ƏDƏBİYYAT**

1. E.Sadıqov. “Bank əməliyyatları”, Bakı-2010.
2. https://www.kapitalbank.az
3. https://www.pashabank.az
4. https://www.bankrespublika.az

***Нубар Анвар кызы Гусейнова,***
***Степень магистра банковского дела,***
***Азербайджанский Университет Кооперации.***
***E-mail: nubar.gulcin92@mail.ru***
***Научный руководитель: д.ф.э., дос. Эльнура Бунят кызы МАМЕДОВА,***
***mammadova-e@list.ru***

**Классификация операций, проводимых в азербайджанских банках в современное время**

***Резюме***

**Цель исследования** – изучить современное банковское дело, определить операции банков, их роль в экономике страны.

**Методология исследования** – системный и комплексный подход к теме исследования, анализ банковских операций с различных сторон, методы классификации.

**Актуальность исследования** – полученные результаты могут быть использованы для решения задач, связанных с банковскими операциями.

**Результаты исследования** – Разработка предложений по совершенствованию деятельности банков в условиях современного экономического развития.

**Оригинальность и научная новизна исследования** – взгляды на затронутую мною в статье тему сформированы в соответствии с требованиями современного экономического развития. В статье отражены операции, осуществляемые в банках, их характеристика, виды, роль в экономике, текущие операции и услуги в различных коммерческих банках.

***Ключевые слова: банки, банковские операции, активные и пассивные операции.***

***Nubar Anvar Huseynova,***
***Master of Banking, Azerbaijan Cooperation University***
***E-mail: nubar.gulcin92@mail.ru***
***Scientific adviser: Elnura Bunyat MAMMADOVA,***
***Doctor of Philosophy in Economics, ass. prof.***
***mammadova-e@list.ru***

**Classification of operations carried out in Azerbaijani banks in modern times**

***Summary***

**Purpose of the study** – study modern banking, determine the operations of banks, their role in the country's economy.

**Research Methodology** – systematic and integrated approach to the research topic, analysis of banking operations from various angles, classification methods.

**The relevance of research** – the results obtained can be used to solve problems related to banking operations.

**Research results** – Development of proposals for improving the activities of banks in the conditions of modern economic development.

**Originality and scientific novelty of the research** – views on the topic I touched upon in the article are formed in accordance with the requirements of modern economic development. The article reflects the operations carried out in banks, their characteristics, types, role in the economy, current operations and services in various commercial banks.

***Key words: banks, banking operations, active and passive operations.***